# AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 75

Bakı şəhəri «25» iyul 2014-cü il

**"Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası haqqında Əsasnamənin və Strukturun təsdiq edilməsi barədə "**

Azərbaycan Respublikası Səhiyyə Nazirinin 13 iyun 2014-cü il tarixli 55 nömrəli əmrinin 2.1-ci bəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin 14.2-ci və 14.3-cü bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. "Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
2. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasının strukturu təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 16 yanvar 2014-cü il tarixli 6 nömrəli əmrinin 2-ci bəndi ləğv edilsin.
4. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 25.07 2014-cü il tarixli 75 nömrəli əmri ilə təsdiq edilmişdir

**Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasının**

# STRUKTURU

I. İdarəetmə və təsərrüfat bölməsi

II. Təşkilatı-metodik kabinet

III. **Plastik - Rekonstruktiv cərrahiyə şöbəsi**

1. qəbul diaqnostika bölməsi
2. I cərrahiyə bölməsi — 14 çarpayı
3. II cərrahiyə bölməsi — 14 çarpayı
4. anesteziologiya və reanimasiya bölməsi — 4 çarpayı
5. əməliyyat bloku
6. fizioterapiya və tibbi bərpa bölməsi
7. klinik laboratoriya
8. şüa diaqnostika bölməsi

IV. **Yanıq şöbəsi**

1. qəbul diaqnostika bölməsi
2. böyüklər üçün yanıq bölməsi — 40 çarpayı
3. uşaqlar üçün yanıq bölməsi — 20 çarpayı
4. əməliyyat bloku
5. anesteziologiya və reanimasiya bölməsi — 4 çarpayı
6. klinik laboratoriya

V. Transfuzioloji kabinet

VI. Aptek

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
25.07. 2014-cü il tarixli 75 nömrəli əmri
ilə təsdiq edilmişdir

# Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası haqqında

# ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1. Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun ( bundan sonra-İnstitut) Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası(bundan sonra – Klinika) müasir tibb elminin və texnikanın nailiyyətləri əsasında əhaliyə plastik və rekonstruktiv cərrahiyyə üzrə həmçinin termiki və kimyəvi yanıqlarda ixtisaslaşdırılmış tibb yardım göstərən, bu profilli xəstələrin müalicə və reabilitasiyasını ölkə üzrə koordinasiya edən və elmi-metodik işləri aparan İnstitutun struktur bölməsidir.

2. Klinika öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Səhiyyə Nazirliyinin və İnstitutun əmr və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

3. Klinika öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

4. Klinikanın saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

5. Klinika eyni zamanda İnstitutun tədris bazasıdır.

6. Klinika Bakı şəhəri, Sabunçu rayonu, Seyid Hüseynov küçəsi 10 və Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi 101 ünvanlarında fəaliyyət göstərir.

## II. Klinikanın fəaliyyət istiqamətləri

7. Klinikanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. əhaliyə termik və kimyəvi yanıqlarda ixtisaslaşdırılmış tibbi yardım göstərir;

7.2. əhaliyə plastik və rekonstruktiv cərrahiyə sahəsində ixtisaslaşdırılmış stasionar və konsultativ tibb göstərir;

7.3 bu profildə olan xəstələrin müalicə və reabilitasiyasını ölkə üzrə koordinasiya edir;

7.4 tibb elminin və tibbi texnikanın yeni nailiyyətləri əsasında profilaktikaya, diaqnostikaya və xəstələrin müalicəsinə dair müasir metodları tətbiq edir;

7.5. tibb kadrlarının hazırlanması ilə bağlı tədris-pedaqoji prosesini həyata keçirir;

7.6. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Klinikanın vəzifələri

8. Klinika aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. əhaliyə ( böyüklərə və uşaqlara) termiki və kimyəvi yanıqlarda təcili və planlı ixtisaslaşdırılmış stasionar tibb xidməti göstərmək;

8.2. ambulator-poliklinik tibb xidməti göstərən müalicə-profilaktika müəssisələrinin göndərişi əsasında yüksək ixtisaslı stasionar və konsultativ tibbi xidmət göstərmək;

8.3. ölkədə yanıqların səbəblərini öyrənmək və onların profilaktikası üçün təkliflər hazırlamaq;

8.4. ölkədə yanıqların səbəb olduğu patologiyalarla bağlı ölüm hadisələrini təhlil etmək;

8.5. Klinikaya gətirilmiş xəstələrin standartlara , klinik protokollara, mövcud qaydalara müvafiq müayinəsini, ilkin yardımı və kompleks müalicəsini təmin etmək;

8.6.kəskin və qəfləti xəstələnmə hallarında yaşayış yerindən və yaşından asılı olmayaraq müraciət edənlərə təxirəsalınmaz tibbi yardım göstərmək;

8.7. elmi-tədqiqat işlərinin aparılması, müasir yüksək keyfiyyətli tibb texnologiyalarının işlənib hazırlanması və tətbiq edilməsi üçün şərait yaratmaq;

8.8. bazasında yerləşən kafedraların əməkdaşlarının iştirakı ilə klinikanın tibb heyətinin peşəkar ixtisaslaşmasının nəzəri səviyyəsini yüksəldilmək;

8.9. xidmət göstərdiyi profil üzrə tibbi yardımın vəziyyətinin, yaxşılaşdırılması istiqamətində təkliflər vermək və tədbirlər hazırlayaraq həyata keçirilməsini təmin etmək müasir profilaktika, diaqnostika və müalicə üsullarının müalicə-profilaktika müəssisələrində tətbiq olunmasını təşkil etmək;

8.10. klinikanın çarpayı fondunun səmərəli istifadə olunması üçün təkliflər hazırlamaq;

8.11. təhsilin müasir metodlarından, elmin və təcrübənin yeni nailiyyətlərindən istifadə etməklə tədris-pedaqoji prosesini həyata keçirmək;

8.12. klinikanın struktur bölmələrinin işinin səmərəliliyin və göstərilən müalicə-profilaktika yardımının keyfiyyətinin təhlilini aparmaq;

8.13. klinikanın fəaliyyəti haqqında hesabatların toplanması, ümumiləşdirilməsi, dəqiqləşdirilməsi və İnstituta çatdırılmasını təmin etmək;

8.14. klinikanın fəaliyyəti ilə əlaqədar olaraq daxil olan ərizə və şikayətlərə baxmaq, qanunvericiliklə müəyyən edilmiş müddət ərzində müvafiq tədbirlər görmək;

8.15. fəaliyyət sahəsi ilə bağlı əhalinin məlumatlandırılmasını, həmçinin internet saytının yaradılmasını təmin etmək;

8.16. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. Klinikanın hüquqları

9. Klinikanın öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. əhaliyə göstərilən tibb xidmətinin təkmilləşdirilməsi və inkişafına dair təkliflər vermək;

9.2. əhaliyə göstərilən tibb xidmət sahəsində öz səlahiyyətləri daxilində müvafiq investisiyaların cəlb olunmasına dair təkliflər vermək;

9.3. işçilərin ixtisas hazırlıqlarının təkmilləşdirilməsi və elmi kadrların hazırlanmasında, eyni zamanda onların müəyyən olunmuş qaydada sertifikasiyasının və attestasiyasının həyata keçirilməsində iştirak etmək;

9.4. qabaqcıl işçilərin mükafatlandırması, fəxri adların, orden və medalların verilməsi haqqında aidiyyəti üzrə təkliflərlə müraciət etmək;

9.5. elmi-tədqiqat institutları və digər müalicə müəssisələri ilə birlikdə elmi konfrans, simpozium və digər tədbirləri təşkil etmək və bu tədbirlərdə iştirak etmək;

9.6. qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı və xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsini öyrənmək;

9.7. qanunvericiliyə uyğun olaraq nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Klinikanın fəaliyyətinin təşkili

10. Klinikanın strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir.

11. Klinikaya İnstitutun təqdimatı əsasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən baş həkim rəhbərlik edir. Baş həkim klinikaya həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

12 Baş həkim:

12.1. klinikanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

12.2. klinikanın struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

12.3. klinikanın işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi üçün təqdimatlar verir;

12.4. klinikanın işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

12.5. klinikanın işçilərinin ixtisaslarının artırılması üçün tədbirlər görür;

12.6. klinikanın fəaliyyətini nazirliyin sisteminə daxil olan qurumlarla əlaqələndirir;

12.7. klinikanı təmsil edir.